# Parisdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü təntənə ilə qeyd edilib

**Azərbaycanın Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü qeyd edilib.**

Səfir Leyla Abdullayeva çıxış edərək, 1991-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən təsis olunan və bütün azərbaycanlıların birlik rəmzinə çevrilən bu bayram münasibətilə diaspor üzvlərini təbrik edib. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların həmrəyliyi ideyasını, onların təşkilatlanmasını daim diqqət mərkəzində saxlayan Ümummilli Lider Heydər Əliyevin bu istiqamətdə misilsiz xidmətlərini vurğulayıb.

Səfir Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əhəmiyyətindən, onun əsas məqsədinin azərbaycanlıları birliyə, əməkdaşlığa çağırmaq olmasından söz açıb, Fransa kimi bir ölkədə Azərbaycan icmasının həmrəyliyinin böyük əhəmiyyət kəsb etdiyini deyib. Səfir bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində tarixi qələbəsi dövlətimizin, xalqımızın, eləcə də xaricdə yaşayan azərbaycanlıların birlik, həmrəylik və qürur rəmzinə çevrilib. 2023-cü ildən Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilib. Böyük Zəfər ölkəmizin tarixində yeni səhifə açdığı kimi, xaricdə yaşayan soydaşlarımızı birləşdirən diasporumuzun fəaliyyətində yeni dövrün əsasını qoyub. Vətən müharibəsi diasporumuzu daha da mətinləşdirib.

Tədbirdə Fransadakı diplomatlarımız, Azərbaycan diasporasının üzvləri, bu ölkədə təhsil alan gənclər iştirak ediblər.

Azərbaycan.- 2024.- 21 dekabr (№282).- S.11.